*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh.191-195*

https://doi.org/10.62837/2025.4.191

**Prof. MƏMMƏDOVA ZEMFIRA ŞAHNƏZƏR QIZI**
**zmemmedova@amu.edu.az**
**fil.ü.f.d. MƏMMƏDOVA AYGÜN ŞAHNƏZƏR QIZI**
**SƏFIXANOVA AFƏT HACIXAN QIZI**
**asefixanova@amu.edu.az**

# CƏMİYYƏTDƏ TƏFƏKKÜRÜN İNKİŞAF ETDİRİLMƏSİNDƏ DİLLƏRİN ROLU

**Açar sözlər:** *dil, sosiolinqvistika, təfəkkül, social münasibət*

Dil insan cəmiyyətinin ayrılmaz hissəsi olub, təfəkkürün formalaşmasında çox vacib rol oynayır. Dil vasitəsi ilə insanlar düşüncələrini və dünyagörüşlərini formalaşdırırlar.

İnsan təfəkkürünün inkişafında dilin rolu, onun koqnitiv proseslərə təsiri və öyrətmə prosesindəki əhəmiyyəti dilçilik tərəfindən aydınlaşdırılır. Dil və təfəkkür bir-birilə əlaqədədir. Dil dünyanın modelidir. Tarixin bütün dövrlərində dil social hadisə kimi özünü göstərmişdir, yəni dili cəmiyyətdən kənar bir varlıq kimi qəbul etmək olmaz. Təfəkkür obyektiv reallığın aktiv əks olunmasının ən yüksək formasıdır. Obyektlərin və hadisələrin əsas əlaqələri haqqında məqsədyönlü, vasitəçi və ümumiləşdirilmiş bilikdir. O, bəşəriyyətin idrak və social-tarixi təcrübəsinin sabitləşdiyi və ümumiləşdiyi müxtəlif forma və strukturlarda həyata keçirilir. Buna anlayışlar, kateqoriyalar və nəzəriyyələri aid etmək olar. Dil insan idrakının formalaşmasında, məntiqi düşüncənin şəkillənməsində və social əlaqələnin qurulmasında çox vacib amildir. Dil və təfəkkür arasında əlaqə koqnitiv dilçilik arasında əlaqə yaradır. Dil eyni zamanda insanlarda yaradıcı təfəkkürün formalaşmasına kömək edir. Dilçiliyin müxtəlif elmi fənlərlə əlaqəsi yeni tədqiqat sahələrinin yaranmasına səbəb olur. Linqokulturologiya dünyanın milli mənzərəsini, linqvistik süurunu, mental – linqual kompleksin xüsusiyyətlərini öyrənməsi məqsədəuyğundur.

Dil işarə sistemi kimi təfəkkürün maddi dayağıdır, fikirləri maddiləşdirir. İnformasiya mübadiləsinin təmin edir. Düşüncə reallığı əks etdirir, dil isə maddidir. Dilin təfəkkürlə əlaqəsi ona öz kommunikativ və idrak funksiyalarını yerinə yetirməyə imkan verir, dil yalnız xarici aləmin cisimləri və hadisələri haqqında mühakimə və mesajlar çatdırır, həm də bu dünya haqqında biliklərimizi müəyyən şəkildə təşkil edir, onları bölür və sabitləşdirir. Dil social hadisə kimi yaranır, inkişaf edir və fəaliyyət göstərir. İnsan nitqinin mənşəyi çox mürəkkəb məsələdir, onu təkcə dilçilik deyil, həm də digər elmlər psixologiya, etnoqrafiya, biologiya öyrənməkdədir. Dilin mənşəyi insanın və insan cəmiyyətinin mənşəyinin tərkib hissəsidir. Bir milyon ildən çox əvvəl meydana çıxan qədim insanlar uzun müddət

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 4, 2025
Səh. 191-195

insanın bioloji və sosial xüsusiyyətlərini özlərində daşıyıb inkişaf etdirirdilər. Dil təfəkkür işini obyektləşdirən və cəmiyyətdə insanların ünsiyyət, fikir mübadiləsi və qarşılıqlı anlaşma vasitəsi olan səs, lüğət və qrammatik vasitələrin tarixən formalaşmış sistemidir (1 səh.13-15). Təfəkkürün formalaşmasında dilin səs koqnitiv psixologiya baxımından öyrənilməsi qeyd olunur. Məsələn, uşaqlarda dilin inkişafı onlarda, mühakimə və problem həll etmə qabiliyyətini də formalaşdırır. Qeyd etmək lazımdır ki, dil və təfəkkür bir-biri ilə sıx əlaqədədir. Fəlsəfə və psixologiyada bu iki anlayış mütərəqqi yer tutur. Dil insan cəmiyyətinin ayrılmaz hissəsi olaraq təfəkkürün formalaşmasında çox vacib rol oynayır. Dil vasitəsi ilə insanlar düşüncələrini ifadə edir, məlumat alır – verir və dünyagörüşlərini formalaşdırır. Bu məqsəd insan təfəkkürünün inkişafında dilin rolu, onun koqnitiv proseslərə təsiri və öyrənmə prosesindəki əhəmiyyəti qeyd edilmişdir. Dil və təfəkkür insan beynində idrak proseslərinə təsir edərək koqnitiv dilçilik və təfəkkür arasında bağlantılar yaradır və məntiqi düşüncənin şəkillənməsində dilin rolunu göstərir. Dil eyni zamanda sosial münasibətlərin qurulmasında və insanın təfəkkür inkişafında mühüm rol oynayır. Dil cəmiyyətin tərbiyə və təhsil fəaliyyətində böyük rol oynayır, çünki dil biliklərin, mədəni, tarixi və digər ənənələrin nəsildən-nəsilə ötürülməsi vacibdir. Dil və onun lüğət tərkibi maddi mədəniyyətin inkişafına və mənəvi mədəniyyətin nailiyyətlərinə cavab verir. Müasir dil keçmiş sosial nümunələrin və sosial strukturları düzəldən xüsusiyyətləri özündə qoruyub saxlayır. Dilin cəmiyyətdə əlaqəsi obyektivdir, ayrı-ayrı şəxslərin iradəsindən asılı deyildir. Dilin sosial mahiyyəti ilk növbədə onun xalqla bu dilin yaradıcısı və daşıyıcısı ilə onun normaları, xüsusən də ədəbi və yazılı dillə bağlılığında özünü göstərir. Nitq dil varlığının formasıdır və o dil funksiyalarını yerinə yetirir. Eyni zamanda nitq fəaliyyəti insanın nitq istehsalı üçün həyata keçirdiyi psixofizioloji işlərin məcmusudur (2. Səh. 21-22). Dilçilik tarixinin sübut etdiyi kimi, dil və nitq anlayışları çox vaxt bir-birindən fərqlənmirdi, ya dil fərdin nitq fəaliyyətinə, ya da nitq və onun dilə təsiri tamamilə nəzərə alınmır. Dil ünsiyyət vasitəsidir, nitq bu vasitə ilə yaranan ünsiyyət növüdür. Yəni nitq nitq vasitəsilə öz kommunikativ funksiyasını yerinə yetirən dilin təcəssümü və reallaşmasıdır. Dilin nisbilik nəzəriyyəsinə görə müxtəlif dillərdə fərqli kateqoriyalar mövcuddur və həmin dillərin daşıyıcıları dünyanı və ətraf aləmi məfz fərqli formada təsvir və izah edirlər. Mədəni mənanı əks etdirən mədəniyyət bir xalqın həyat tərzini səciyyələndirən praktik bacarıq və düşüncənin birləşməsidir. Bu cəmiyyət tərəfindən həyata keçirilən dəyər seçimidir. Dil sosial və mədəni inkişafın məhsuludur, mədəniyyətdən öncə yaranmışdır. Dil və mədəniyyətin bir sıra ümumi xüsusiyyətləri mövcuddur. Dil mədəniyyəti toplayır bir yerə yığır və miras qoyur. Mədəniyyətin inkişafının sürətlənməsi dilin inkişafının sürətlənməsinə səbəb olur. Mədəniyyətdəki dəyişikliklər dildən daha süurlu olur. Linqvo kulturologiya filoloji elmlərdəndir. Milli mədəni ümummilliliyi öyrənir, dil və mədəniyyətin qarşılıqlı əlaqəsini tədqiq

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh.191-195*

edir. Dil vahidlərinin mədəni markirovkası etnokultur və yaxud milli spesifika daşıyır. Etnokultur spesifika – kulturoloji mentaliteti formalaşdırır və informasiya verilir. Dil vahidlərinin kulturoloji aspektlərini qeyd etmək vacib şərtlərdən biridir. Dil sisteminin üzvləri arasında əlaqələr və fərqlər iki fərqli sahədə fərqli şəkildə qeyd olunması linqvistikanın mükəmməl öyrənilməsinə kömək edir (3. Səh. 17-18). Qloballaşma dövründə ingilis dilli beynəlxalq kommunikasiya vasitələri kimi ön plana çıxır və insan təfəkkürünün inkişafında mühüm rol oynayır.

İngilis dilini öyrənmək insanlara yeni məlumat mənbələrinə daxil olma imkanı verir və çoxdilli düşüncə sisteminin formalaşmasına kömək edir. İngilis dili beynəlxalq elmi araşdırmaların texnologiyasının və biznesin əsas dili olduğu üçün onu bilən insanlar daha geniş əhatədə düşüncə, yeni ideyaları dərhal qavramaq qabiliyyətinə malik olurlar, bu da ingilis dilinin təfəkkürün inkişafında rolunu göstərir. Bundan başqa, ingilis dili öyrənmək insan beyninin elastikliyini artırır, yəni mühakimə və analiz etmə qabiliyyətini gücləndirir. İngilis dili vasitəsilə insanlar yeni dünya görüşünə sahib olur, yeni perspektivlər kəşf edir. Araşdırmalar göstərir ki, çoxdilli insanlarda yaradıcı təfəkkür də problem həll etmə bacarıqları daha çox inkişaf edir. Xüsusilə, ingilis dili kimi geniş istifadə olunan bir dil bilən insanlar müxtəlif mədəniyyətlər arası əlaqələr qura, informasiya bolluğu daxilində öz düşüncə sistemlərini formalaşdıra bilirlər. Cəmiyyətdə öyrənilmiş söz və ifadələr insanlararası əlaqələri müəyyənləşdirir və bu da təfəkkürün strukturuna təsir edir. Ümumiyyətlə, dil təfəkkürün ayrılmaz bir hissəsi kimi insanın koqnitiv, sosial fərdi inkişafında çox önəmli rol oynayır. Dilin formalaşması və istifadəsinin təkmilləşdirərək təfəkkürün inkişafına təkan verə biləcəyi düşünülür. Bu da təfəkkürün inkişafında sadəcə şifahi kommunikasiya vasitəsi deyil, eyni zamanda insan beyninin inkişaf etdirən amillərdən biridir. Dilin lüğət tərkibi xalqın mədəni inkişaf səviyyəsini inkişaf etdirir, lüğət tərkibi mədəniyyətinin həssas bir göstəricisidir. Bunu sözlərin, terminlərin mənalarındakı dəyişikliklər arxaik və tarixizmlərin itirilməsi, arxada qalması, yeni sözlərin, neologizmlərin yaradılması və alınma sözlərin dilə daxil olması və s. sabitləşməsində görmək olar. Hər hansı bir xalqa məxsus zəngin bir lüğət ehtiyatı qədim mədəniyyətin dilinin və təfəkkürün inkişafına kömək edir (4. Səh. 5-7).

Dilin ictimai münasibətlərin inkişafına təsiri ilk növbədə, dilin xalqın formalaşmasında möhkəmləndirici amillərdən biri olması ilə sübut olunur. O, bir tərəfdən onun bar verməsi üçün şərtdirsə, digər tərəfdən də bu prosesin nəticəsidir. Dil maddi mədəniyyətin inkişafına və mənəvi mədəniyyətin nailiyyətinə cavab verir. Nitq dil varlığının bir formasıdır və bu dil funksiyalarını yerinə yetirir. Həmçinin nitq fəaliyyəti insanın nitq istehsalı üçün həyata keçirdiyi psixofiemoloji işlərin məcmusudur. Müasir dil keçmiş sosial nümunələri və sosial strukturları düzəldən xüsusiyyətləri özündə qoruyub saxlayır. Dilin cəmiyyətdə əlaqəsi obyektivdir, ayrı-ayrı şəxslərin iradəsindən asılı deyildir. Bununla belə, dilə cəmiyyətin məqsədyönlü

təsiri də mümkündür. Dilin sosial mahiyyəti ilk növbədə onun xalqa – hər bir dilin yaradıcısı və daşıyıcısı kimi özünəməxsus normaları, xüsusən də ədəbi və yazılı dilə bağlılığı özünü biruzə verir. Hər bir dil dialekt şəkilndə danışan xalqın ərazi fərqini də cəmiyyətin təbəqələrə və qruplara sosial defermasiyalarını əks etdirir. Dil cəmiyyətin tərbiyə və təhsil fəaliyyətində böyük rol oynayır, dil vasitəsilə biliklər və məlumatlar nəsildən-nəsilə ötürülür. Beləliklə, dil və təfəkkürün vəhdətdə olması və cəmiyyətdə dilin vacib rol oynadığı qeyd edilir.

**Проф. З.Ш.Мамедова**
**Д.ф.ф.пред. А.Ш.Мамедова**
**Пред. А.Г.Сафиханова**

## РОЛЬ ЯЗЫКОВ В РАЗВИТИИ МЫШЛЕНИЯ В ОБЩЕСТВО

**Ключевые слова:** языка, общество, мышления, социолингвистика

Язык является неотъемлемой гостью человеческого мышления играет важную роль в формировании когнитивных процессов и коммуникативных навыков. В обществе, где развивается многоязыкие, языки служат не только средством общения, но и инструментом познания, анализа и выражения сложный идей. Язык – это модель мира. С одной сторона язык является режим признаком этноса а с другой сущностью выполняющей свою основную функцию. В все периоды истории язык проявлял себя как социальное явления, то есть язык не может рассматриваться как субъективные общество. Являясь очень важным средством общения язык также порождает взаимодействие социальной обусловленности. Проблема язык и мышление одна из самых сложных и дискуссионных проблем теории языкознания. В разные периода истории науки о языке одна решалась по-разному: представители логического направления сторонними психологического течения пытались решать этом вопрос по – иному обосновывая превосходство мышления над языком а затем языка над мышлением. Мышлении есть высшая форма активного отражения объективной действительности, представляет собой целенаправленное, обобщенное знания об основных отношениях предметов и событий. Орудием мысли является язык, как и другие знаковые системы. Мы знаем что, язык является носителем культуры. Таким образом, языки играют ключевую роль в разными мышления в обществе. Они способствуют когнитивному росту, формированию критического мышления и помогают человеку адаптироваться. К изменяющимся условиям. Развитие языковых навыков на государственном и международном уровнях имеет важное значение для общего прогресса общества.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh.191-195*

**Prof. Z.SH.Mammadova**
**Ph. A.SH.Mammadova**
**Teacher A.H.Safikhanova**

# THE ROLE OF LANGUAGE IN THE DEVELOPMENT OF COGNITION IN SOCIETY

**Key words:** linguistics, language, though, sociolinguistics.

Languages play a crucial role in the development of thinking in society. They are not only tools for communication but also fundamental in shaping cognitive processes, problem – solving abilities, and creativity. Different languages provide unique ways of perceiving and categorizing the wired, influencing how individuals reason and interpret information. Language is the model of the world. On the one hand is a rave sign of an ethnos, and on the other hand it is entity that performs its main function. In all periods of history, language manifested itself a social phenomenon, that is language cant be considered as a subject outside of society. Being a very important means of communication, language also generates of the interaction of social conditioning. The problem of language and thinking is one of the most complex and debatable problem in the theory of linguistics. In different periods of the history of the science of language. It was solved in different ways: representatives logical direction, for example defined these concepts: supporters of psychological trend tried to solve this issue in different ways. Learning a new language expands one`s perspective allowing individuals to access diverse cultural knowledge and develop a more nuanced understanding of complex ideas. Moreover in education and research language proficiency with global knowledge. Thinking is the linguist form of active reflection of objective reality. It is realized in various forms and structures in which the cognitive and socio – historical experience of mankind is stabilized and generalized. This, languages are essential for intellectual growth, social development and innovation within a society.

## ƏDƏBİYYAT

1.Əlizadə Ə. Dil və təfəkkül. 2004, Bakı;
2. Vigotsky: Thought and language. 1986, Bakı;
3. Chombsky: Language and mind. Combridge university press. 2006
4.Якутский Б. В. Гипотеза о происхождения языка. Москва, Наука, 1984.

**Rəyçi: dos. A.A.Qadaşova**